Səh. 2 Sonrakı peşmanlıq fayda verər – Azər Musaoğlu
Səh. 3 İbadət, birlik və mərhəmət ayı – Ramazan – Hacı Bəkiroğlu
Səh. 5 Beynimizin məşqi pozulur – Esmira Ələkbərli
Səh. 7 Universitetlərdə proqramların bölünməsi barədə təhsil araşdırmaçısının arqumentləri
Səh. 2 Məktəblərimizi qoruyaq – Cəlal Yadigarlı
Səh. 4 2026-2027-Cİ TƏDRİS İLİ ÜÇÜN ŞAGİRDLƏRİN BİRİNCİ SİNFƏ QEYDİYYATI BAŞLAYIB
Səh. 7 Belə-belə işlər: Qalaktion Tabidze – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

28 FEVRAL
2026-Cİ İL
№ 04 (244)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ BİR SIRA İQTİSADİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİB



Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili Türkiyənin ticarət naziri Ömer Bolatla fevralın 26-da Kaxetidə keçirilən üçtərəfli biznes forumu çərçivəsində Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin modernləşdirilməsini və istifadəyə verilməsini müzakirə edib.

Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin yaydığı xəbərə görə, tərəflər ticarət, nəqliyyat və logistika, turizm, energetika və kənd təsərrüfatı sahələrində ikitərəfli əməkdaşlığın səviyyəsini yüksək qiymətləndiriblər.

Görüşdə ticari-iqtisadi əlaqələrə xüsusi diqqət yetirilib. Qeyd olunub ki, Türkiyə Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biri olaraq qalır və 2025-ci ildə xarici ticarətin həcminə görə birinci yeri tutub.

Bundan başqa, nazirlər mülki aviasiya da daxil olmaqla qarşılıqlı fəaliyyətin digər prioritet istiqamətlərini nəzərdən keçiriblər. Bildirilib ki, 2025-ci ildə hava nəqliyyatında sərnişin axını 14 %-dən çox artıb. Uzun fasilədən sonra Gürcüstan hökumətinin dəstəyi ilə iki ölkənin paytaxtları arasında birbaşa uçuşlar bərpa edilib.

Müzakirələr zamanı Tbilisi və Batumi hava limanlarının operatoru olan "TAV Georgia" şirkəti ilə əməkdaşlığa da toxunulub. 2027-2031-ci illərdə şirkət Tbilisi Beynəlxalq Hava Limanının inkişafına 150 milyon dollar investisiya yatırmağı və onun buraxılış qabiliyyətini ildə 10 milyon sərnişinə qədər artırmağı planlaşdırır.

Orta Dəhlizin rəqabət qabiliyyətini artıracaq, əlavə yük axını cəlb edə biləcək iri nəqliyyat-infrastruktur layihələrinə ayrıca diqqət yetirilib. Yaxın gələcəkdə rəsmi qaydada istismara veriləcək və regionun nəqliyyat bağlantısının möhkəmləndirilməsinə mühüm töhfə verəcək BTQ dəmir yolu xəttinin əhəmiyyəti vurğulanıb.

Bundan başqa, nazirlər quru və dəniz yolu ilə daşımalar sahəsində əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

## BAŞ NAZİR: DEMOQRAFİYA SAHƏSİNDƏ REAL NƏTİCƏLƏR VERƏCƏK TƏDBİRLƏR HƏYATA KEÇİRMƏLİYİK



Doğum və nikah-boşanma istiqamətində inkişaf edən problemli tendensiyaları kökündən dəyişdirmək vacibdir. Bu tendensiyaların maliyyə və iqtisadi əsaslardan daha çox ideoloji əsası var. Demoqrafiya sahəsində real nəticələr verəcək tədbirlər həyata keçirməliyik. Bu sözləri Gürcüstanın Baş naziri İrakli Kobaxidze parlamentdə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, 2012-ci ildən sonrakı dinamikanı əvvəlki dinamika ilə müqayisə etsək görərik ki, 2003-cü ildə Gürcüstan əhalisi 3 milyon 966 min nəfər idi və 3 milyon 739 minə qədər azalıb. "2003-cü ildən 2012-ci ilə qədər Gürcüstanda əhali təxminən 226 min nəfər azalıb. Dövlət Statistika Xidməti ümumi əhali siyahıyaalmasını keçirib və Gürcüstan əhalisi 3 milyon 914 min nəfərdir. Düzünü desəm, əhalinin artımı əsasən immiqrasiya ilə bağlıdır", – deyə Baş nazir qeyd edib.

## MARTIN 1-DƏN GÜRCÜSTANDA ƏCNƏBİLƏR BİR SIRA SAHƏLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏ BİLMƏYƏCƏKLƏR




Gürcüstan hökuməti əcnəbilərə iş icazələrinin verilməsi qaydalarını sərtləşdirib. Ölkənin Baş naziri İrakli Kobaxidzenin imzaladığı yeni qərara əsasən, bir sıra sahələr üzrə illik kvotalar müəyyən edilib və bəzi fəaliyyət növləri üçün "sıfır kvota" tətbiq olunub.

Baş nazir bildirib ki, qərarın əsas məqsədi Gürcüstan vətəndaşlarının, xüsusilə də əmək bazarındakı maraqlarının qorunmasıdır. Onun sözlərinə görə, dövlət öz vətəndaşlarının məşğulluq imkanlarını təmin etməli və onların həddindən artıq rəqabətlə üzləşməsinin qarşısını almalıdır.

Qərara əsasən, əcnəbilər Gürcüstanda kuryer xidmətlərində, sərnişin daşınmasında, turistlərə bələdçi, dağ, alp və xizək bələdçiliyi xidmətində fəaliyyət göstərə bilməyəcək.

Qərar martın 1-dən qüvvəyə minəcək.



# SONRAKI PEŞMANLIQ FAYDA VERƏR

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

Bilmirəm, mənəmi elə gəlir, ya həqiqətənmi elədir. "Peşman", "peşmanlıq", "peşmanam", "peşman oldum" ifadələri son vaxtlar çox az işlədilir, ümumiyyətlə, heç işlədilmir elə bil. Son vaxtlar bu ifadələrə yalnız oxuduğum kitablarda rast gəlirəm desəm, şişirtmərəm yəqin. Bəlkə də ətrafımdakı adamlar daha peşman olmurlar, peşman olası hərəkət etmirlər, bəlkə də əksinə, peşman olsalar da, peşman olası hərəkət etsələr də peşmanlıqlarını dillərinə gətirmirlər. Axı müasir insanın eqosu o qədər şişib ki, törətdiyi pis əmələ görə, dediyi pis sözə görə peşman olmur daha. Artıq "peşman", "peşmanlıq" ifadələri də arxaizmə çevrilir...

Yenə deyirəm, bu, mənə belə gələ bilər, səhv edə bilərəm, amma oturub düşünəndə son zamanlar bu ifadəni kimdənsə eşitdiyimi xatırlamıram. Deyim ki, insanlar peşman olacaq nəsə eləmirlər, ağ yalan olar. Xəbər saytlarında, televiziyada, radioda hər gün qətllər, müxtəlif pisliklər törədənlər haqqında yüzlərlə yazılar, xəbərlər oxuyuruq, baxırıq, dinləyirik; qətllər törədən, pisliklər edən adamların heç biri tutduğu əmələ görə peşman olduğunu demir, dilə gətirmir. Sanki belə də olmalıdır.

Bəlkə doğrudan da insanlar öldürdükləri adama görə, törətdikləri cinayətə görə, oğurluğa, hər cür əxlaqsızlığa görə, rüşvət aldığına, kiməsə təhqir etdiyinə, yalan danışdığına və başqa-başqa pisliklərə görə peşman deyillər?.. Bütün bunların norma qəbul edildiyi cəmiyyətlərdə peşmanlıq hissi atavizmə çevrilir, insan törətdiyi neqativ əməlin pis olmadığına inanaraq peşman da olmur, bunu dilə də gətirmir.

Məsələn, bir uşaq yaxşı ilə pisi dərk edəcək yaşa çatdıqda görür məktəbdə müəllimi, evdə valideyni, əmisi-dayısı, xalası-bibisi, qonum-qonşusu törətdiyi pisliyə görə peşman olmur, peşman olduğunu dilinə gətirmir, peşmanlıq hissini zərrə qədər də büruzə vermir. Evdə bişməyib, qonşudan gəlməyib yəni. Axı uşaq gördüyünü götürər. Bu uşaq məktəbi bitirib universitetə qəbul olur, artıq peşmanlığın necə, nə cür olduğunu bilməyən uşaq gəncliyində də gördüyü, üzləşdiyi haqsızlıqlara, pisliklərə, əxlaqsızlıqlara görə kiminsə peşman olduğunu, bunu dilə gətirdiyini görmür. İnsanın peşman olmasını, peşmanlıq hissi keçirməsini kitabda-zadda oxuyur, həyatda isə valideynlərinin peşman olmadan bir-birini söyüb-döydüyünü, müəlliminin peşman olmadan rüşvət aldığını, nəqliyyatda, küçədə, televiziyada, dünyada insanların peşman olmadan bir-birini təhqir etmələrini, döymələrini, bıçaqlamalarını, güllələmələrini, müharibə etmələrini görür.

Beləliklə də yeni nəsil peşmanlığın necə, nə cür, harada olduğunu bilmir, peşmanlıq hissini itirməsə də büruzə vermir, bəzən də bacarmır, pis əməllərinə görə peşman olmayan bir nəslin davamçısı olur: oğurluq edəndə də, yalan danışanda da, söyüş söyəndə də, adam döyəndə də, rüşvət alanda da, adam öldürəndə də və min cür psiliklər edəndə də peşman olduğunu demir, dilə gətirmir.

Sonrakı peşmanlıq fayda verməz deyib atalarımız. Bəlkə də buna görə peşmanlıq yaşadan əməldən sonra peşman olduğumuzu demirik, qəlbimizin dərinliyində peşman olsaq da, gizlədirik. Axı peşmanlıq elə sonrakı olmurmu? İnsan peşman olacaq nəsə etdiyini əvvəlcədən bilsə o əməli törədərmi?.. Sonrakı peşmanlıq fayda verməz deyib adamı peşman olmaq məsuliyyətindən azad etmirikmi? İnsan səhv elədi – bitdi, dünyanın axırıdır sanki, peşman olmağa dəyməz, onsuz da faydası olan deyil, səhvlər etməyə, pisliklər törətməyə davam etsin, eləmi? Məncə, sonrakı peşmanlıq fayda verər, ən azından peşmanlığın necə, nə cür olduğunu bilməyən yeni nəsil üçün bir dərs olar. Sonradan da olsa peşman olmaq pis əmələ görə heç peşman olmamaqdan qat-qat yaxşıdır. Axı peşmanlıq da bir növ tövbədir. Belə ki, peşman olun, peşman olduğunuzu dilə gətirməkdən çəkinməyin...

# MƏKTƏBLƏRİMİZİ QORUYAQ



Təhsil bir millətin qədərini dəyişə bilən, intibahına və ya tənəzzülünə birbaşa təsir göstərən ən mühüm faktordur. Bu gün insanlar bir-birlərindən təhsilləri ilə üstün ola bilirlər. Müasir dünya ilə ayaqlaşa bilmək üçün təhsildə uğur əldə etməliyik. Nə pulumuz, nə qolumuzun gücü, nə sayımızın çoxluğu təhsil olmadan bizi güclü millətlərlə bir sıraya gətirə bilməz. Bəs necə edək ki, təhsildə irəliləyə bilək?

Millət anlayışına aydınlıq gətirərkən Maks Veber vurğulayır ki, millət ancaq dövlət qurmuş və ya dövlət qurmaq üçün mübarizə aparan insan toplumuna deyilir. Mən düşünürəm ki, Maks Veberin bu dahi konsepsiyasına dil faktorunu da əlavə etmək olar. Dövlət qurmuş və ya dövlət qurmaq üçün mübarizə aparan, həmçinin ortaq dili olan, bu dildə azad şəkildə danışan, bu dildə təhsil ala bilən insan toplumuna millət demək olar. Tarixdən aydın görürük ki, bəşərin inkişafı ortaq əməyin inkişafına bağlıdır. İnsanın ortaq əməyi olması üçün ilk şərt ortaq dilin olmasıdır. Öz doğma dilində təfəkkür edən insanların bir çox qabiliyyətlərinin inkişaf etdiyi barizdir. Qısacası demək olar ki, dil bizim varlığımızın və kimliyimizin əsas sənədidir. Dilimizi qoruya bilməsək, biz varlığımızı qoruya bilməyəcəyik. Məsələn, kürd milləti öz dilində təhsil almamağın nəticəsində bir-birini anlaya bilmir. Suriyada yaşayan kürd Diyarbəkirdə yaşayan kürdü, Diyarbəkirdə yaşayan kürd Hakkaridə yaşayan kürdü anlaya bilmir. Dilin ortaq tədris metodu olmayanda zaman keçdikcə ləhcələr o qədər fərqlənir ki, başa düşmək mümkünsüz olur. Ədəbi dil olmadıqda isə ləhcələri bir-birinə bağlayan heç nə qalmır. Dilini itirən və ya bu cür bir-birindən kəskin fərqlənən ləhcələrə bölünmüş millətlər elmdə irəli gedə bilmirlər. Ya gərək öz dilini atıb (assimilyasiya olub) tamamilə başqa bir dilə keçsin, ya da gərək öz dilində təhsil alsın. Assimilyasiyanın da necə çirkin bir proses olduğunu yaxşı bilirik.

Gürcüstanda indiyə qədər azərbaycandilli məktəblər aktiv fəaliyyət göstərir, məzunlar yaxşı nəticələr əldə edirdi. Yeni təhsil islahatlarına əsasən, bu ildən hər azərbaycandilli məktəbdə gürcü sektorunun açılması məcburi edilir. Bu qərarın təhsilin təkmilləşdirilməsi ilə heç əlaqəsi ola bilərmi? Hər azərbaycandilli məktəbdə gürcü sektorunun açılması təhsili nə kimi alternativ yolla təkmilləşdirə bilər? Özümüz özümüzü niyə aldadırıq. Azərbaycanlıların yaşadıqları rayon mərkəzlərində gürcüdilli məktəblər onsuz da var. Rayon mərkəzindən çox uzaq olan kəndlərdə də gürcü sektoru çoxdan açılmışdı. İndi azərbaycandilli məktəblərdə bu sektorun məcburi olaraq açılması Borçalı türklərinin ana dillərinin açıq şəkildə sıxışdırılması və məktəblərdən yavaş-yavaş təcrid olunmasına yönəldilmişdir. Mən buna başqa ad verə bilmirəm və bu qərarın təhsili təkmilləşdirmək əvəzinə təhsilin belini qıracağına əminəm. Gürcü sektoru bitirən uşaqlarla azərbaycandilli məktəb bitirən uşaqların universitetlərdə aldıqları nəticələrlə həmişə maraqlanıram və ana dilində təhsil alan uşaqların necə fərqləndiyini, hər sahədə necə uğur əldə etdiyini yaxşı görürəm. Azərbaycanlı tələbələrdən ən yüksək nəticə alanların əksəriyyəti azərbaycandilli məktəb bitirib.

Mən özüm azərbaycandilli məktəb bitirmişəm. Hər gün məktəbdə bir saat keçilən gürcü dili dərslərində mükəmməl olmasa da, özümüzü ifadə edə biləcək qədər gürcü dili öyrənmişdik. 1+4 hazırlıq proqramı müddətində isə gürcü dilini mükəmməl səviyyədə öyrəndim. 4-cü kursdayam, indiyə qədər dövlət təqaüdü ilə oxumuşam və ümumi ortalamam 90+dur. Azərbaycandilli məktəb oxumaq dövlət dilindən məhrum qalmaq demək deyil. İnsanın oxuduğunu dərk etməsi üçün, özünəməxsus yanaşma tərzinin olması üçün, fikrini ifadə edə bilməsi üçün ana dilini yaxşı bilməsi şərtdir. Ana dilini yaxşı bilməyən insanların özünəxas fikri olmur və olsa belə heç vaxt onu ifadə edə bilmir. Xarici dili nə qədər yaxşı bilsək də, bizim bütün təfəkkürümüz anamızın dilində yaranır.

Əziz valideynlər, gəlin uşaqlarımızı fəlakətə itələməyək. Uşaqları gürcü sektoruna yazdırmayın. Öz ana dilində təhsilindən məhrum etdiyiniz uşaq sizin etimadınızı doğrultmayacaq. Dövlət dilini hər şəkildə öyrənə bilər. Ana dilinin xərcinə dövlət dili öyrənən insan nə ailəyə, nə cəmiyyətə fayda verə bilməz.

**Cəlal Yadigarlı**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# YARIŞMASAQ, YAŞASAQ...

Həyat imtahanları ilə, düşüşü-qalxışı, əyrisi-doğrusu ilə bir bütündür. İnsanoğlu bu fani dünyada fərqli imtahanlardan, fərqli həyat mərhələlərindən keçir. Bəzən dar yollarda sıxılırıq, nəfəsimiz kəsilir, bəzən isə genişliyə qovuşur, rahatlıq tapırıq. Elə anlar olur ki, yenicə ayağa qalxmışkən, üst-başımızı silkələmək üçün söykəndiyimiz divar qəfil arxamızdan yox olur və biz yenidən yıxılırıq. Bəzən yenidən ayağa qalxmaq istəyi belə qalmır insanda. İstəksizlik ümidsizlikdən irəli gəlir. Halbuki belə anlarda bəzən sadəcə bir əl, bir nəfəs, bir söz kifayət edir. Kiçik bir qığılcım insanın daxilində böyük bir enerjiyə çevrilə bilər – topladığı bütün təcrübələrlə yenidən özünü inşa etməsi üçün. Elə isə niyə biz bir-birimizə bu qığılcımı verməkdən imtina edirik? Və ya bir-birimizin nəyə görə xoş gününü görməyə təhəmmülümüz olmur? Niyə şirin söz, motivasiya mənbəyi ola bilmirik bir-birimiz üçün?

Yazının elə bu yerində günün gündüz saatlarında bir məclisdə qadınların növhəsində (ağlaşmasında, şivənində) eşitdiyim bir misra yadıma düşdü: "Gəl əl-ələ verək, əli də belə verək dəstək olaq bir-birimizə". Nəyə görə ölüm məqamı baş verdikdən sonra şivənlərdə ucalır bu cür dəstəkləyici misralar. Bu misraları insanlar sağ vaxtı yaşasalar, yaşatsalar olmazmı? Yasda birləşib yenə şifahi misralarlamı kifayətlənməliyik, havaya qarışan nəfəslə səslənən bu misraları özümüz yaşasaq, bir-birimizə yaşatsaq həyatın necə də gözəlləşəcəyini heç düşündükmü.

Bir bütün olaraq yaradılan bu həyatı yaşamaq, anlamaq və idrak etmək üçün Yaradan tərəfindən göndərilmədikmi biz? Bəs nə zaman biz bu həyatı bir yarış platforması kimi görməyə başladıq? Onsuz da həyat eyni ritmdə irəliləmir. Onsuz da hər birimiz dar koridorlardan keçirik; bəzən düzə çıxırıq, bəzən çıxa bilmirik. Həyatla öz mübarizəmiz yetərincə ağır ikən, niyə bir də bir-birimizlə yarışırıq? Yarışdıqca itiririk – dəqiqələri, saatları, ayları, illəri... Bütün bunların cəmi isə təkrarsız bir ömürdür. Təkrarsızı niyə tükədirik, sanki sonsuzmuş kimi?

Axı ömrün təkrarı yoxdur. Üçüncü, beşinci dəfə yaşamaq fürsətimiz yoxdur ki, ilkində təcrübə toplayıb sonrakılarda daha peşəkar davam edək. Ömür deyilən sərmayə anbaan azalır. Gedən ömrə qarşılıq əlimizdə nə qalır? Bu suallar üzərində düşünməyə dəvət edirəm hər birimizi.

Biz yarışırıq və bu yarışın hakimi də elə özümüzük. Qaydaları özümüz qoyur, özümüz pozur, özümüz uduzuruq, qalib oluruq. Bu dövrə bitmir, amma bitən tək bir şey var – ömür.

Kaş ki, yaşayaq, doya-doya, idrak edə-edə. Bir-birini yuyan iki əl ola bilsək. Daxilimizdəki bu yarış arzusunu kənara qoya bilsək. Günlər ömürdən gedərkən yaş üstünə yaş gəldikcə, ağlımızın və idrakımızın pəncərələri taybatay açılsa. Yarışaq, ancaq xeyir əməllərdə, gösdərişdə deyil.

Səmimi ola bilsək... Ehtiyacımız olanı qarşı tərəfə ötürməkdən çəkinməsək. "Sonra əleyhimə dönərmi?" qorxusu ilə hisslərimizi öz içimizdə həbs etməsək, həyat necə də yaşanılması rahat və hüzurlu bir hal alar.

İmtahanların ixtiyarı Yaradandadır, hikmətindən sual olunmaz. Amma biz ixtiyarımızda olanları sahmana salsaq, özümüz özümüzə maneələr çıxarmasaq həyatın əsas qayəsi ilə məşğul olmağa gücümüz də, taqətimiz də olar.

Bu gün cəmiyyətin əksəriyyəti – istər gənc, istər orta nəsil – narahatdır. Lakin narahatlıqla kifayətlənmək yetərli deyil. Narazılığı aradan qaldırmaq üçün söz yox, əməl gərəkdir, əmək gərəkdir. Bəhrəsini gördükdə isə sevinmək gərəkdir. Söz əməl deyil. Söz uçub gedər, əməl qalar. Söz niyyətin səsli formasıdır, niyyət isə əməl ilə isbat olunmalıdır. Əks halda bu, sadəcə boşuna sərf olunan nəfəsdən başqa bir şey deyil.

Dəyərli oxucular, gəlin yarışaraq deyil, yaşayaraq yaşlanaq. Bu haldan narazı ikən bizdən sonrakı nəsillərə heç olmasa az da olsa dəyərli bir miras buraxaq. Keçmiş yazılarımdan bir cümlə ilə bitirmək istəyirəm: Elə yaşa ki, bu həyatda faydalı izin qalsın, yaşadığına, yaşayaraq bitirdiyin ömrə dəysin.

**Lamiyə Hacıyeva (Eminova)**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsi Qadınlar Şurasının sədri*

# İBADƏT, BİRLİK VƏ MƏRHƏMƏT AYI – RAMAZAN



Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Hər dinin, hər millətin özünəxas müqəddəs günləri və zamanları olduğu kimi, islam dinin də bu mübarək zaman dilimlərindən biri Ramazan ayıdır. Ramazan ayı insanın yalnız fiziki oruc tutması ilə məhdudlaşmır, həm də mənəvi saflaşma, paylaşma və yardımlaşma ayıdır. Bu ayın ən böyük əhəmiyyəti isə Qurani-Kərimin məhz Ramazan ayında nazil olmasıdır. Bu hadisə Ramazanı sadəcə bir ibadət ayı deyil, həm də ilahi kəlamın insanlığa təqdim olunduğu müqəddəs bir zaman dilimi kimi ucaldır. Ona görə də Ramazan "Quran ayı" adlanır və müsəlmanlar bu ayda Quran tilavətinə, onun mənasına daha çox diqqət yetirirlər.

Allah Quranda buyurur: "Ramazan ayı elə bir aydır ki, onda insanlara doğru yolu göstərən, hidayət və (haqqı batildən) ayırd edən Quran nazil olmuşdur..." (Bəqərə, 185).

Ramazan süfrələri yalnız ailə üzvlərini deyil, ehtiyac sahiblərini də əhatə edir. İftar süfrələri sadəcə yemək deyil, həm də sevgi, mərhəmət və dua ilə dolu bir məclisə çevrilir. İnsanlar bir parça çörəyi bölüşməklə, bir stəkan suyu paylaşmaqla həm öz ruhlarını zənginləşdirir, həm də cəmiyyətin birliyinə töhfə verirlər. Yardımlaşma bu ayın ayrılmaz hissəsidir: ehtiyac sahiblərinə ərzaq paylanır, xeyriyyə aksiyaları təşkil olunur, yetimlərin və kimsəsizlərin yanında olunur. Bu əməllərin mahiyyəti yalnız maddi dəstək vermək deyil, həm də mənəvi bir körpü qurmaqdır.

Ramazanın son günlərində isə xüsusi bir ibadət olan fitr sədəqəsi mühüm yer tutur. Fitr sədəqəsi orucun qəbul olunması, insanın Ramazan boyunca etdiyi ibadətlərin tamamlanması və ehtiyac sahiblərinin bayram günlərində sevincə şərik olması üçün verilir. Bu sədəqə hər bir müsəlmanın üzərinə vacibdir və onun mahiyyəti cəmiyyətin ən zəif təbəqələrinə sevinc çatdırmaq, bayram süfrəsindən heç kimin kənarda qalmamasını təmin etməkdir. Beləcə, Ramazan yalnız fərdi ibadət deyil, həm də ümumi birliyin, paylaşmanın və mərhəmətin ayına çevrilir.

Ramazanın ən mühüm gecələrindən biri isə Qədr gecəsidir. Qurani-Kərimdə bu gecə "min aydan xeyirli" olaraq təsvir edilir. Qədr gecəsi ilahi rəhmətin, bağışlanmanın və hidayətin zirvəsi sayılır. Müsəlmanlar bu gecədə dua edir, Quran oxuyur, ibadətə daha çox vaxt ayırır və Allahdan bağışlanma diləyirlər. Bu gecə Ramazanın ruhunu tamamlayan ən ali məqamdır və insanlara mənəvi güc, ümid və saflaşma bəxş edir.

Mübarək günlər insan həyatında sadəcə təqvimdə qeyd olunan bayram deyil, həm də ruhun bayramıdır. Keçmişdə bu günlərdə hər evdə şirniyyat bişirilər, qonşulara pay aparılar, böyüklərin evinə baş çəkilərdi. Açılan iftar süfrələri sadəcə yemək deyil, həm də sevgi, hörmət və dua ilə dolu bir məclis idi. Uşaqların gülüşü, böyüklərin duası, evlərin işığı – hamısı bu günlərin ayrılmaz hissəsi idi.

Bu gün isə həyat dəyişib, amma mahiyyət eyni qalıb. Sosial şəbəkələrdə təbriklər paylaşılır, gənclər könüllü fəaliyyətlərlə cəmiyyətə fayda verməyə çalışır, müxtəlif təşkilatlar yardımlar üçün kampaniyalar keçirir. Müasir formalar ənənənin ruhunu yaşadır. Sevinc paylaşılır, birlik qorunur. Əslində, mübarək günlərin gözəlliyi ondadır ki, zaman dəyişsə də, niyyət dəyişmir. İstər bir parça şirniyyatla, istər bir təbrik mesajı ilə, istərsə də bir xeyriyyə işi ilə – biz hamımız bu günlərdə bir-birimizə yaxınlaşırıq. Paylaşmaq bizi daha güclü, birlik isə daha ümidli edir.

Ramazan ayı bizə xatırladır ki, ən böyük bayram süfrəsi ürəklərdə açılır. Qurani-Kərimin nazil olduğu bu mübarək ayda, Qədr gecəsinin nurunda və fitr sədəqəsi ilə tamamlanan bu müqəddəs günlərdə gəlin ənənəni yaşadaq, sevincimizi bölüşək, ehtiyac sahiblərinə yardım əlimizi uzadaq və birliyin gücünü gələcəyə daşıyaq. Çünki Ramazanın və bütün mübarək günlərin mahiyyəti budur: insanı insana yaxınlaşdırmaq, ürəkləri birləşdirmək və ümid işığını gələcək nəsillərə ötürmək.

# 2026-2027-ci TƏDRİS İLİ ÜÇÜN ŞAGİRDLƏRİN BİRİNCİ SİNFƏ QEYDİYYATI BAŞLAYIB




2026-2027-ci tədris ili üçün ictimai məktəblərdə şagirdlərin birinci sinfə qeydiyyatı fevralın 18-də başlayıb və mərhələlərə uyğun davam edəcək.

**Bu il qeydiyyat prosesində aşağıdakı yeniliklər olacaq:**

1. 2026-2027-ci tədris ilindən şagirdlərin birinci sinfə qeydiyyat prosesində dəyişiklik edilib. Ümumi qeydiyyat başlayana kimi üçüncü mərhələ – "ərazi prinsipi ilə qeydiyyat olma" əlavə olunub. Məqsəd şagirdlərin yaşayış yerinə yaxın ictimai məktəbə qəbul olmaq imkanını artırmaqdır.

2. "Ərazi prinsipi ilə qeydiyyat" mərhələsinə 12 şəhər qoşulacaq – Tbilisi, Kutaisi, Batumi, Rustavi məktəb məntəqələrinə bölünüb və Poti, Zuqdidi, Telavi, Ambrolauri, Axaltsixe, Ozurgeti, Mtsxeta və Qori inzibati sərhədlərlə əhatə olunub.

Tbilisi şəhərində isə məktəb dairələrinin inzibati sərhədlərinə yaxın ərazilərdə yaşayan şagirdlərin yaşayış yerindən məsafəsi 1 kilometrdən çox olmayan qonşu məktəb dairəsinin məktəblərində də qeydiyyatdan keçmək hüququ olacaqdır. Daha çox çevikliyin təmin edilməsi məqsədilə, qeyd olunan ünvanların siyahısı və müvafiq məktəblər fərdi inzibati-hüquqi aktla müəyyən ediləcəkdir.

Üçüncü mərhələdə qeydiyyat Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin elektron məlumatlar bazasında 2026-cı ilin 1 aprelinə olan göstəricilərə əsasən, şagirdin qeydiyyat ünvanına uyğun həyata keçiriləcək.

**Kim nə zaman qeydiyyatdan keçməlidir:**

***2026-2027-ci tədris ili üçün şagirdin birinci sinfə qeydiyyat müddəti, mərhələlər və prosedurlar:***

**I mərhələ.** Bu mərhələdə 2026-cı il 18 fevraldan 2 marta qədər məktəblərdə xüsusi təhsilə ehtiyacı olan uşaqlar qeydiyyatdan keçiriləcəklər.

Birinci mərhələdə qeydiyyatdan keçmiş uşaqların valideynləri istədikləri ictimai məktəbə ərizə ilə müraciət etməlidirlər. Məktəb administrasiyası uşağı Təhsilin İdarəsi üzrə Məlumat Sistemində (EMIS) qeydiyyatdan keçirəcəklər. Xüsusi təhsil ehtiyacının təsdiq edilməsi məqsədilə valideyn məktəbdə müvafiq müraciət formasını doldurmalıdır. Bundan sonra Təhsil Müəssisəsinin Mandatur Xidmətinin İnklüziv və Xüsusi Təhsilə Dəstək Mərkəzinin psixopedaqoji qiymətləndirmə və məsləhət mütəxəssisləri tərəfindən uşağın qiymətləndirilməsi və onun təhsil ehtiyacının müəyyən edilməsi həyata keçirilir. Xüsusi təhsil ehtiyacı təsdiqləndiyi təqdirdə, məktəb şagirdin qəbulunu psixopedaqoji qiymətləndirmə rəyi və müvafiq sənədlər əsasında təmin edir.

Birinci mərhələdə qeydiyyatdan keçən uşaqlar üçün sənədlərin təqdim edilməsi və qəbul dövrü 2026-cı il martın 4-dən aprelin 17-nə qədərdir.

Xüsusi təhsilə ehtiyacı olan şagird sonrakı xüsusiyyətləri olanlar hesab oluna bilər: a) Fiziki məhdudiyyət; b) İntellektual inkişafın pozulması; c) Təhsil bacarığının pozulması; ç) Sensor inkişafın pozulması (eşitmə və ya görmə); d) Nitq inkişafının pozulması; e) Davranış və emosional pozuntu; ə) Uzunmüddətli hospitalizasiya ehtiyacı; f) Təhsildə sosial faktorlarla bağlı yaranan çətinliklər, hansı ki, bu səbəbdən milli tədris planının tələblərini mənimsəyə bilmir; g) Autizm spektri.

Xüsusi təhsil ehtiyacı təsdiq olunmayan uşaqların növbəti mərhələdə qeydiyyatdan keçmək imkanı olacaq.

**II mərhələ.** Bu mərhələdə şagirdlərin qeydiyyatı və sənədlərin təqdim edilməsi 2026-cı il 21 apreldən 8 maya qədər həyata keçiriləcək.

Bu mərhələdə qeydiyyatdan keçəcək uşaqlar:

• Bacı-qardaşları həmin məktəbdə təhsil alanlar;
• Valideynləri həmin məktəbin əməkdaşı olanlar;
• Ailədən eyni zamanda bir və ya daha çox uşaq birinci sinfə gedərsə;

Təqdim olunan sənədlər əsasında qeydiyyatı ictimai məktəb təmin edəcək.

**III mərhələ.** Ərazi prinsipi ilə onlayn qeydiyyat mərhələsi 2026-cı il mayın 15-dən mayın 25-nə qədər davam edəcək.

Qeydiyyatı Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin rəsmi veb-səhifəsində **(registration.emis.ge)** valideyn və ya qanuni nümayəndə həyata keçirməlidir.

İctimai məktəblərdə III mərhələdə elektron qeydiyyatdan keçmiş şagirdin vacib sənədlərinin qəbulu 2026-cı il mayın 27-dən iyunun 12-nə qədər həyata keçiriləcək.

**IV mərhələ.** Ümumi onlayn qeydiyyat 2026-cı il iyunun 15-də başlayacaq və iyulun 3-nə kimi davam edəcək.

Qeydiyyatı Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin rəsmi veb-səhifəsində (registration.emis.ge) valideyn və ya qanuni nümayəndə həyata keçirməlidir.

Elektron qeydiyyatdan keçmiş şagirdin vacib sənədlərinin qəbulu 2026-cı il iyulun 6-dan iyulun 17-nə kimi həyata keçiriləcək.

Şagirdin qəbulu üçün vacib sənədlər müəyyən edilmiş müddətdə təqdim olunmazsa qeydiyyat avtomatik ləğv olunacaq.

**V mərhələ.** Bu mərhələdə qalan boş yerlərə və ya əvvəlki mərhələdə boşalan yerlərə I, II, III, IV mərhələlərdə qeydiyyatdan keçə bilməyən, yaxud qeydiyyatı dəyişmək istəyən uşaqların qeydiyyatı həyata keçiriləcək. Bu mərhələ üçün qeydiyyat və sənədlərin təqdim edilməsi 2026-cı il iyulun 20-dən iyulun 31-nə kimi müəyyən edilib.

Valideyn və ya qanuni nümayəndə tərəfindən təqdim edilmiş vacib sənədlər əsasında beşinci mərhələdə şagirdin qeydiyyatını ictimai məktəb təmin edir.

**Birinci sinfə qəbul olmaq üçün lazım olan sənədlər:**

Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizədə qanuni nümayəndənin yaşayış yeri və telefon nömrəsi qeyd olunmalıdır. Ərizə Gürcüstan Ümumi İnzibati Məcəlləsinin 78-ci maddəsi ilə müəyyən edilmiş digər tələblərə uyğun olmalıdır. Qanuni nümayəndənin şəxsiyyəti təsdiq edən sənədinin surəti və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin surəti (belə hal olarsa). Sənədlər xarici dildə olarsa Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya uyğun olaraq gürcü dilinə tərcüməsi də təqdim olunmalıdır.

Şagirdin doğum şəhadətnaməsi, yaxud şəxsiyyəti təsdiq edən sənədin surəti və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin surəti (belə hal olarsa). Sənədlər xarici dildə olarsa Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya uyğun olaraq gürcü dilinə tərcüməsi də təqdim olunmalıdır.

***Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi valideynləri qeydiyyat müddəti və şərtləri ilə diqqətlə tanış olmağa çağırır ki, uşaqları vaxtında və maneəsiz məktəbə qeydiyyat edə bilsinlər.***

## DÖVLƏT UNİVERSİTETLƏRİNƏ PROQRAMLAR ÜZRƏ QƏBUL OLUNACAQ TƏLƏBƏLƏRİN SAYI ARTIRILDI



26 fevral 2026-cı il tarixində dövlət universitetlərinə vahid milli və ümumi magistratura imtahanları əsasında qəbul ediləcək tələbələrin sayı haqqında qərara dəyişikliklər edilib.

Baş nazir İrakli Kobaxidzenin "2026-2027-ci tədris ili üçün dövlət tərəfindən təsis edilmiş ali təhsil müəssisələrində, ali təhsil müəssisəsi və təhsil proqramları (kurikulumlar) üzrə vahid milli imtahanlar/magistratura imtahanları ilə və vahid milli imtahanlar/magistratura imtahanlarından keçmədən qəbul ediləcək tələbələrin sayı haqqında" qərarı dəyişdirilmişdir.

Yeni qərara əsasən, dövlət universitetlərində konkret proqramlar üzrə kvotalar artırılmışdır. Ümumilikdə 2026-cı ildə dövlət universitetləri 21574 birinci kurs tələbəsi qəbul etməlidir.

Magistraturaya qəbul yerlərinin sayı da artırılmış və yeni qərarla 3335 olaraq müəyyən edilmişdir.

***Səhifədəki məlumatlar "edu.aris.ge" saytından götürülüb.***
***Gürcü dilindən tərcümə etdi Aynurə Əliyeva.***

# İNSAN VƏ SÜNİ ZƏKANIN DİALOQU: YENİ MÜNASİBƏT



Bir vaxtlar bir sual vardı: "Məlumat haradadır?" İndi isə özümü başqa bir sualın içində tapıram: "Bu cavab mənim üçün nə deməkdir?"

Bir gün sadə bir sual yazdım. Böyük deyildi. Hətta tələsik idi. Cavab gəldi. Amma məni saxlayan cavabın özü olmadı. Dayandım. Oxudum. Bir daha oxudum. O an anladım ki, mən cavab axtarmırammış. Mən aydınlıq axtarırammış.

İnsan səsdən, sürətdən, hər şeyə tez cavab verilməsindən yorulur. Bəzən sənə cavab yox, sadəcə biri lazımdır ki, sözünü sona qədər dinləsin. Tələsmədən. Yarımçıq kəsmədən.

Süni zəka bu nöqtədə maraqlı bir yerdə dayanır. O hiss etmir. Sevmir. Amma diqqətlə dinləyirmiş kimi cavab verir. Və bu, insana qəribə bir rahatlıq gətirir.

Amma burada dayanmaq lazımdır. Çünki bu yalnız bir alətdir. O məsuliyyət daşımır. O ürək ağrısı çəkmir. O susmağın nə demək olduğunu bilmir.

Gələcəkdə bu sistemlər daha ağıllı olacaq. Daha sürətli. Daha çox işi bizim yerimizə görəcək. Amma bir şeyi bacarmayacaq – insanın gözünün içinə baxıb susmağı, söz demədən yanında qalmağı, qarşındakını düzəltməyə çalışmadan başa düşməyi. Məncə, əsas məsələ də budur.

Alətdən istifadə etməyi öyrənmək asandır. Amma insan olaraq qalmaq zəhmət istəyir. Çünki səmimi şəkildə susmaq, həqiqətən dinləmək, gözləmək... – bunlar proqramlaşdırılmır.

İnsan bəzən cavab vermir. Sadəcə orada olur. Və insanı insan edən də elə budur: diqqət, səbir və qəlb səsi.

Süni zəka bir vasitədir. Amma insan – hiss edən insan hər anı dəyərləndirir.

Və ən güclü bağlar nə sözlə, nə kodla, nə də analizlə yaranır. Onlar yalnız bir yerdən doğulur: səmimiyyətdən.

**Vüsalə Məmmədova**

# BEYNİMİZİN MƏŞQİ POZULUR



Həmişə demişəm, deyirəm ki, hər deyimin mütləq şəkildə əsası var. Babalarımız "İş insanın cövhəridir" deyəndə hikmət xırdalamışdılar. Cövhər kimyada ekstrat, yəni məcun anlamına gəlir. Tərkibi faydalı maddələrdir. Həyatın inkişafında əməyin rolunu danmaq mümkünsüzdür. İnsan əməyə vərdişlə beynini mükəmməlləşdirib. Bəlkə də ibtidai sinifdə oxuduğumuz "Qazanılmış manat" hekayəsindəki kimi, əziyyət çəkəndə dəyərli olur hər şey.

Texnologiyanın ikişafını həvəslə, sevinclə qarşılasaq da, faciəli nəticələri hələ qabaqdadır. Doqquz iqlimli vətənimizin nemətlərinə həsrətlə baxıb özünü pəhrizin girdabında əsir edən yazıqlar heç düşünmür ki, bunun bircə açarı elə həmin cövhərdir ki, babalar demişdi.

Fizikada mexanikanın qızıl qaydası işdirsə, sağlam yaşamağın da açarı əməkdir; hansı ki bu gün yenilənmiş əşyalar mətbəximizə, daha dərin məişətimizə daxil oldu. Daha bütün oynaqları hərəkətə gətirən paltar yuma əməliyyatı tarixə qovuşdu. Ev süpürən, döşəmə yuyan, ət çəkən, hətta çay qarışdıran qaşıq da varsa, bu, qadınların faciəsidir. Yer belləyən, suvaran, ot biçən, inək sağan texnika kişiləri də tənbəlləşdirdi. Texnologiya ocağımızın başına gəlişiylə bizi o babalarımızın əvəzolunmaz cövhərindən məhrum elədi. Cövhərimiz tükəndi; əlbəttə, bu zarafat deyil, acı həqiqətdir.

Yenə də son olmadı, indi də artıq süni intellekt deyilən bir "suyeyən" var ki, hamımız bu yeniliyi maraqla qarşıladıq. Çox ucuz bir işçidir, bir dəqiqədə bütün vikipediyanın məlumatlarını çatdırır. Düzdür, bəzən səhv məlumatlar da verir; əsas odur ki, bir saat vaxt sərf edəcəyimiz məlumat bir dəqiqəyə hazır olur.

Sizcə, bədii əsəri oxusaqmı daha maraqlı olar, yoxsa məzmunu kimsə danışsamı? Əsəri oxuyanda cümlə-cümlə o hadisələri yaşayırsan, bədii təsvirlərlə təbiəti dərk edirsən, hadisələrin həyəcanını yaşayırsan; ən əsası düzgün yazı qaydaları, söz ehtiyatı öyrənirsən. Bu "sofiyalar" isə bizə asan xidmətlə çətin gələcək verir; hansı ki o gələcək tənəzzülə aparır.

Fikrimi əsaslandırım: babalar "əmək sərf olunan hər iş bizə cövhər verir" demişdi. O cövhərlə həyatımız qidalanırdı. Əzələ əmək sərf etdikcə genişlənir, beynin inkişafı da məhz zehni genişlədir. Beynin məşqi də oxumaq, yazmaq, daim yeni informasiyalar öyrənməkdir. Lazım olan hesabı hesablayıcı – kalkulyator hesablayırsa, beyin necə inkişaf edəcək? Heç bir dükançı sadə bir qiyməti belə özü hesablamır; bəzən adama elə gəlir, onlar vurma cədvəlini belə bilmirlər.

Bayramlar gələndə çox az adam hissini tərənnüm edən xoş söz yazır. Hər kəs hazır mesajlardan istifadə edir.

Bu istifadə orta yaşlı təbəqə üçün yenə də dərd yarı... Asan yol məktəbdə tənbəl şagirdlərə yoluxub. Notbuksuz şagird yoxdursa, deməli, internetsiz də yoxdur. "Filan mövzunu araşdır" deyirsənsə, artıq hər kəsin özünəməxsus bir ad qoyduğu süni intellekt onların yerinə araşdırır, yazır, təqdimat halına salır və sonra da çap edir. Vəssəlam. Olur ananın oğluna verdiyi həmin ocaqda yanan o urvatsız "qazanılmamış manat". Necə ki oğul o yanan manatın qədrini bilmirdi, bizim şagirdlər də heç bir araşdırma aparmadan, özləri seçib düzənləmədiyi, hazır əllərinə gələn nəticəni tezcə unudacaqlar. Bütün tapşırıqları, demək olar ki, ChatGPT-lər həll edirsə, bəs bu şagirdlər nə öyrənəcək? Xatırladım ki, səhv məlumat da yazırlar. Əsas odur, gənclər və uşaqlar ümumiyyətlə sırf bu yönümlüdürlər.

Bu süni intellekt cəmiyyətimizə elə sirayət edib ki, adama elə gəlir, hər kəs süniləşib. Mənə elə gəlir informasiyalar da eyni mənbədən "su içir". Bu bir yana, danışanda şikəst cümlələr qoşan, ləhcəylə yazan elə adamlar tanıyıram ki, sosial şəbəkədə post yazırlar, hətta şeir, hekayə yazanlar var.

Yox, vallah, yox! Nə edirsiniz edin, bircə şeirə toxunmayın. Bədii yazı elə bir şey ki, o ürəkdən gəlməlidir; axı ruhdan qidalanır. Ruhu Tanrı idarə edir, Sİ yox, ona görə süniliyi hiss etmək çox asandır. Yeniliklərdən imtina edə bilmərik, məcbur palaza bürünməsək də, elnən sürünməsək də, "geridə qalmış" təfəkkürlə palazın qırağıyla, el yoluyla gedəcəyik!

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*



# "BUNU ƏMƏK BAZARININ DİKTƏ ETMƏSİ MÜMKÜN DEYİL" – UNİVERSİTETLƏRDƏ PROQRAMLARIN BÖLÜNMƏSİ BARƏDƏ TƏHSİL ARAŞDIRMAÇISININ ARQUMENTLƏRİ

Ali təhsillə bağlı aparılan cari reformanın çox aspekti var və onu müxtəlif tərəflərdən tənqid etmək olar. Burada konkret olaraq əmək bazarının analizi əsasında kvotaların müəyyən edilməsi haqqında bir neçə məsələni (arqumenti) diqqətə çatdırmaq istəyirəm. Çünki ictimai universitetlərdə qəbul olunacaq tələbələrin sayı əmək bazarının tez və qeyri-şəffaf olaraq apardığı analiz nəticəsində həll oluna bilməz.

**1. Əmək bazarının tələbi universitetlərdə qəbulu müəyyən edəcək yeganə faktor ola bilməz.** Reformanın müəllifləri həmişə deyirlər ki, kvotalar əmək bazarının araşdırılması nəticəsinin müəyyən edilib. Artıq dəfələrlər deyilib ki, elə ixtisaslar var ümumiyyətlə əmək bazarının tələblərində yoxdur. Ancaq onların inkişafı milli maraq sahəsi, strateji məsələ, milli təhlükəsizlik mövzusu, gələcəyə əsaslanmş məsələ və sair ola bilər. Məsələn, əmək bazarının analizi ölkəyə hər il neçə filosof və ya ermənişünasın lazım olduğu barədə bizə dəqiq məlumat verməyəcək.

**2. Böyük ehtimalla, kvotaların tətbiq edilməsi zamanı heç kim müxtəlif proqram məzunlarının real işlə təmin olunma göstəricilərini nəzərə almayıb.** Reformanın müəllifləri deyirlər ki, onlar məzunların öz ixtisası üzrə işlə təmin edilməsinin qayğısına qalırlar. Bunun üçün müxtəlif proqram məzunlarının real işlə təmin edilməsi göstəricisini araşdırmaq daha effektiv olardı. Ehtimal edə bilərik ki, bu, baş verməyib. Çünki, məsələn, ixtisas üzrə işlə təmin edilmə göstəricisi 99 % olan Beynəlxalq İqtisadiyyat Məktəbinin (ISET) ingilisdilli bakalavr proqramına kvota 165-dən 100-ə qədər azalıb. Eləcə də, işlə təmin etmədə yüksək göstəricisi olan İliya Dövlət Universitetinin təhsil idarəetməsi üzrə magistratura proqramına yalnız 5 tələbə qəbul etmək hüququ verilib.

**3. Ehtimal edə bilərik ki, əmək bazarının analizi bəzi böyük işlə təmin edənlərdə, məsələn, məktəblərdə aparılmayıb.** Belə olsaydı, ibtidai sinif müəllimlərinin hazırlanması üzrə inteqrasiya edilmiş bakalavr-magistratura proqramı bütövlükdə ləğv edilməzdi. 2026-2027-ci il üçün Gürcüstanın heç bir ictimai universitetində ibtidai sinif müəlliminin hazırlıq proqramına qəbul elan edilməyib.

**4. Tətbiq edilmiş kvotalar bəzi hallarda sadəcə məntiqli görünmür və sağlam düşüncədən istifadə etsək, bu nəticəyə gələrik ki, belə bölünməni əmək bazarının tələb etməsi mümkün deyil.** Buna ən aydın nümunə artıq tanınmış proqram olan astrolinqvistika və astroarxeologiyadır. Bu bakalavr proqramı üzrə 20 tələbə qəbul olunmalıdır. Ancaq başqa maraqlı nümunələrlə də qarşılaşırıq. Məsələn, İranşünaslıq üzrə bakalavr proqramına 40 yer (30 yer TDU-da, 10 yer Kutaisi Universitetində), sosiologiya bakalavr proqramına – 30 (TDU-da) yer elan olunub. Güman edək ki, sosioloqların işlə təmin edilmə arealı və imkanı İranşünaslardan daha böyükdür.

**5. Yalnız bir neçə biznesdə yaxın dövrdə hansı ixtisaslı işçiyə ehtiyac olduğu ilə bağlı sorğu aparmaq əmək bazarının və işlə təmin edilmənin analizi demək deyildir.** Güman ki, payızda aparılmış analiz haqqında, demək olar, heç nə bilmirik. Amma reformanın müəlliflərinin ictimai çıxışlarından görünür ki, onlar məhz bu metodla rəhbərlik ediblər: biznes nümayəndələrindən hansı bacarığa və ixtisasa malik olan işçilərə ehtiyac olduğunu soruşublar. Ancaq ola bilsin ki, başqa yanaşmadan da istifadə ediblər və bunu həmin analizin, onun aparılması metodologiyasının ictimai şəkildə əlçatan olduğu zaman biləcəyik.

**6. Bir halda ki, kvotalaşdırma yalnız ictimai universitetlərə aiddir, əmək bazarında məzunların imkanlarına bu, onsuz da təsir etməyəcək.** Givi Mikanadze öz çıxışında bu misalı gətirdi: "Ötən 5 il ərzində müxtəlif universitetlərdə hüquq fakültələrində təxminən 3598 tələbə qəbul olurdu. Ancaq təxminən 2047 tələbə təhsilini başa vururdu. Hüquqşünaslara illik tələb isə 700-dən azdır. Müvafiq olaraq, yanlış təcrübə hüquq fakültələrinə qəbul olmuş 3600 tələbədən 2900-nü qurban verirdi, çünki onlar gələcəkdə hüquqşünas olaraq heç yerdə işlə təmin ola bilməyəcəkdilər".

Qərara əsasən, hüquq üzrə bakalavr proqramlarına 1670 yer ayrılıb. Lakin özəl universitetlərdə hüquq proqramına ötən illərdə ayrılmış yerlərdən (1500-ə qədər) çoxu boş qalırdı. Ola bilsin, tələbələr yenə hüquq proqramına qəbul olmağı seçsinlər, ancaq özəl universitetlərdə. Müvafiq olaraq, ola bilsin, yenə həmin sayda hüquq fakültəsinin tələbəsi "qurban" edilsin.

**7. Əmək bazarının araşdırılması və analizi Gürcüstanda davamlı olaraq aparılır, ancaq göründüyü kimi, heç kim bu məlumatlardan istifadə etmir.** Reformanın müəllifləri təsdiq edirlər ki, kvotaların təyin edilməsi üçün İqtisadiyyat Nazirliyi Təhsil Nazirliyi ilə birlikdə 2025-ci ilin payızında əmək bazarının dərin analizini aparıb (dəqiq tarixlər bu analizin başqa detalları kimi məlum deyil). Əmək bazarının və bacarıqlara olan tələbatın tədqiqi və təhlili Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi, eləcə də digər təşkilatlar tərəfindən müntəzəm olaraq həyata keçirilir. Üstəlik, əmək bazarı, məşğulluq və tələbatla bağlı bütün araşdırmaları, məlumatları toplayan və təhlil edən Əmək Bazarının İnformasiya Sistemi mövcuddur. Müvafiq olaraq, yeni təhlilin fors-major qaydada, iki ay ərzində (təxminən, çünki detalları bilmirik) keçirilməsinə niyə ehtiyac yarandığı və mövcud məlumatlardan niyə istifadə edilmədiyi aydın deyil.

**Lela Çaxaya**

*Təhsil məsələləri üzrə tədqiqatçı, İliya Dövlət Universitetinin dəvət olunmuş lektoru.*

*Gürcü dilindən tərcümə edən:*

**Aynurə Əliyeva**

# SƏBİR ÖYRƏDƏN FƏSİL



20 mart tarixindən etibarən yaz fəsli başlayır. El arasında bu fəslə bahar da deyilir. Yaz daha çox Azərbaycan türkcəsində işlənir. Bahar isə fars mənşəli sözdür və tarix boyu ədəbiyyatda, xüsusilə də klassik şeirlərdə istifadə olunub. Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi şairlərin əsərlərində bahar sözü işlədilib və poetik bir məna daşıyır. Bahar sözü daha romantik, daha zərif səslənir. O, təkcə fəsli yox, həm də yenilənmə, dirçəliş, sevgi, ümid mənasını ifadə edir.

Baharın gəlişini təqvimdən əvvəl insanların ruhu hiss edir. Bu gəlişi ən əvvəl çərşənbələr xəbər verir: Su çərşənbəsi, Od çərşənbəsi, Hava (Yel) çərşənbəsi və Torpaq çərşənbəsi. Hər biri təkcə bir günün adı deyil, minilliklərdən süzülüb gələn bir inanc və ənənədir. Bu çərşənbələr baharın addım səsləridir, təbiətin mərhələli şəkildə oyanışı və kainatın yenidən nəfəs almasının göstəricisidir.

Su çərşənbəsi ilə hər şey başlayır. Su həyat mənbəyidir. Qədim inanclara görə, bu gündə sular təzələnir, durulur, axar suların üzərindəki ağırlıq götürülür, buzlar əriməyə başlayır. İnsanlar suya üz tutur, ondan paklıq və şəfa diləyir. Çünki su yalnız torpağı deyil, insanın iç dünyasını da yuyub təmizləyən bir ünsürdür. Su çərşənbəsi bizə xatırladır ki, yenilənmə əvvəlcə insanın ruhundan başlayır.

Ardınca Od çərşənbəsi gəlir. Od istilikdir, od işıqdır, od dirçəlişdir. Tonqallar qalayırıq, üzərindən tullanırıq. Bu, sadəcə bir adət deyil, köhnənin yanıb kül olmasına, insanın içindəki qaranlığın işığa təslim olmasına olan inancdır. Od çərşənbəsi bizə gücü, cəsarəti və bütün xəbisliklərdən təmizlənməyi öyrədir. Ona görə od üzərindən tullanarkən "ağırlığım odda yansın, dərdim külə dönsün" deyirik.

Hava (Yel) çərşənbəsi havanın isinməsini, yelin (küləyin) oyanaraq təbiəti hərəkətə gətirməsini təmsil edir. İnanclara görə, bu gün əsən küləklər ağaclara baharın gəlişini xəbər verir. Külək əsir, budaqlar tərpənir, təbiət nəfəs alır. Hava həyatın davamlılığını təmin edən gizli güc-dür. O, dəyişimin rəmzidir. Yel çərşənbəsi bizə xatırladır ki, həyat daim hərəkətdədir.

Torpaq çərşənbəsində isə torpaq artıq oyanır, cücərtilər baş qaldırır, ağaclar tumurcuqlayır, torpaq yenidən həyat bəxş etməyə hazırlaşır. Bu çərşənbə ümidin zirvəsidir. Çünki torpaq məhsuldarlığın, bərəkətin və davamlılığın simvoludur. Beləcə, bahar torpaqla birlikdə yenidən doğulur.

Bu dörd ünsür – su, od, hava və torpaq həyatın əsas təməllərindəndir. Onlar təkcə təbiətin deyil, insan varlığının da dayaqlarıdır. Çərşənbələr bizə göstərir ki, dirçəliş birdən-birə baş vermir; mərhələli, səbirli və ardıcıl bir prosesdir. Əvvəl ruh təmizlənir, sonra qəlb isinir, nəfəs yenilənir və nəhayət, həyat cücərir.

Çərşənbələr təbiətlə insan arasında görünməz körpü salan bir mərhələlərdir. Hər il bu dörd çərşənbəni qeyd etməklə biz, əslində, öz kökümüzə, öz mənəvi dəyərlərimizə qayıdırıq. Çünki bahar gələndə təkcə təbiət deyil, insanın içindəki inam da çiçəklənir.

Baharın gəlişini bir də torpağa nəfəs verilməyindən bilirik. Belə ki, çərşənbələr başladığı andan torpaq oyanmağa, nəfəs almağa başlayır. Əkin sahələrində torpağın nəfəs aldığı ana dəfələrlə şahid olmuşam. Təzə şumlanmış torpağın üstündə nazik dumanlı təbəqə yaranır. Bu o qədər gözəl mənzərədir ki, insanı ruhlandırır. Şəhərdə yaşayan rəfiqələrimə bu prosesi danışanda heyrətlə qulaq asırlar. Çünki şəhərin asfalt örtükləri bunu görməyə imkan vermir.

Nəhayət, bahar gəlir, qəlbləri isidir, həyatı canlandırır. Bahar təkcə bir fəslin adı deyil, ümiddir, yenilənmədir, başlanğıcdır. Baharın gəlişini insanlar çox sevir və bu günü bayram kimi qeyd edirlər. Novruz bayramını, digər adıyla desək, Bahar bayramını hər il sevinclə, böyük coşqu ilə, xüsusi hazırlıqlarla, tədbirlərlə qarşılayırıq. Çünki bahar fəsli torpağın nəfəs almasıdır, Günəşin hər səhər ümid kimi doğmasıdır. İnsanın içində uzun qışdan sonra açılan gizli pəncərənin səsidir.

Bahar bayramının insanı həyəcanlandıran ayrı bir yanı da var. Bayramda səməni cücərtmək, yumurta boyamaq, papaq atmaq, şəkərbura, paxlava, qoğal bişirmək kimi xüsusi adət-ənənələr də var. Eyni zamanda cıdır yarışı, Kosa və Keçəl, yumurta döyüşdürmək kimi oyunlar oynanılır. Bahar bayramını nişanlı qızlar böyük həvəslə gözləyirlər. Çünki oğlan tərəfi hədiyyələr və xonçalarla qız evinə qonaq gəlir.

Təbiət baharın gəlişi ilə yenidən oyanır və bu oyanış biz hiss etmədən içimizdəki donub buz bağlamış hissləri əritməyə başlayır. İnsan keçmişin tozunu silməsə yeni çiçəklərə yer tapa bilməz. Ona görə də bu fəsil təkcə təbiətin deyil, ruhun da oyanışıdır. Bahar bizə bağışlamağı, yenidən başlamağı, köhnə ağrıları torpağa basdırıb yeni ümidlər əkməyi xatırladır. Küsülülər barışır, məclislər qurulub şadlıqlar edilir.

Bahar torpağın oyanışıdır. Günəş şüaları torpağa toxunduqca donmuş xəyallar da yenidən isinir. Küçələrdə insanların addımları dəyişir, baxışlarında yorğunluq azalır. Qışın bozluğu öz yerini rənglərə verir. Ağacların budaqlarında açan çiçəklər sadəcə təbiət hadisəsi deyil, dirçəlişin rəmzidir.

Bahar həm də mənəvi yenilənmədir. İnsanlar yeni planlar qurur, yarımçıq qalan arzularını xatırlayır, həyata başqa gözlə baxmağa başlayırlar. Çünki bahar insana sübut edir ki, həyat davam edir; ən sərt küləklərdən sonra belə tumurcuq açmaq mümkündür. Bu fəsil bizə səbir öyrədir. Torpaq aylarla susur, amma zamanı gələndə səssizcə çiçək açır. İnsan da bəzən susmalı, dözməli və öz baharını gözləməlidir. Təbiətin hər il yenidən dirilməsi bizə xatırladır ki, həyat nə qədər çətin olsa da, hər qaranlığın sonunda bir işıq var. Bahar gəlirsə, deməli, ümid hələ yaşayır.

**Afaq Azər**

# BELƏ-BELƏ İŞLƏR: QALAKTİON TABİDZE



Görüşlərin birində **Konstantine Qamsaxurdiya** bir yaxını olaraq Qalaktion Tabidzeyə deyib:

– Qalaktion, sən gürcü poetik sözünün böyük estetisən və niyə öz geyiminə fikir vermirsən?

Şair qəhqəhə çəkir, "Böyük ustadın sağ əli" əsərinin müəllifinə barmaqları açılmış əlini göstərub deyir:

– Mənim Kotsiyam, mən bu beş barmağımı daimi olaraq poeziyaya həsr etdim və əlli ildən sonra pərəstişkarlarım üçün bu gün nə geyindiyimin heç bir fərqi olmayacaq!

***

Yeni ilin ikinci günündə, səhər tezdən, Qalaktion **Korneli Kekelidzenin** yanına getdi. Özü ilə araq və karamel qoxusu apardı. Ev sahibi yeyib-içmiş qonaqdan üzünü yan tutmağa çalışdı, amma heç nə alınmadı. Qalaktion onu bir neçə dəfə ürəkdən öpdü, sonra onun ardınca kabinetə girdi, yanına oturdu, əlini çiyninə qoydu və dedi: "Təbrik edirəm, mənim Kornelim, çox belə illər görmüş olasan, arzu edirəm, sağlam canın olsun... Bilirsən ki, biz tibanierlilər güclüyük, qocalıq bizi zəiflətmək üçün heç nə edə bilməz. Biz uca çinarlarıq, köklərimiz isə palıda bənzəyir, uzaqdan da yaxşı görünürük, daha yaxşı"...

Sonra o, Tibanierin çinarları haqqında bir şeir oxudu. Bu zaman Kornelinin həyat yoldaşı Minadora qonağa "qozinağ", şirniyyat, meyvə və konyak gətirdi. Qalaktion yalnız bir dilim "qozinağ" götürdü və dedi: "Belə şirin olaraq qocalmısan, mənim Kornelim! İndi səni görməkdən başqa bir şey istəmirəm. Sabah səhər sənə baş çəkəcəyəm və mənimlə gedək. Onlar Metexi körpüsünün yanında ən yaxşı xaş hazırlayırlar. Xaşla bir-birimizin sağlığına içək".



Bu təklifdən diksinən Korneli qətiyyətlə cavab verdi: "Ah, yox, Qalaktion! Mən xəstəyəm, xaş məni incidir, sən ye. Halalın olsun!" Qalaktion qətiyyətlə dedi: "Yox! Mütləq sənin yanına gələcəyəm və səni aparacağam! Xaş çox yaxşıdır!"

Sonra ev sahibini bir daha öpdü və bir stəkan da içmədən elə getdi. Fikrə getmiş Korneli alnını və yanaqlarını bəyaz dəsmal ilə silərək deyirdi: "Sabah qapıma gəlsə, nə edim? Gizlənməliyəm, başqa çarəm yoxdur! Elə çox maraqlı olardı, Qalaktionla mən meyxanada bir yerdə xaş yeyib bir-birimizlə araq stakanlarını cingildədərik. Camaata qarışmazdıq ki? Yox, yox, əgər sabah yanıma gəlsə, uzun müddət əl çəkməyəcək, onun belə tərslikləri var. Yaxşısı budur, gizlənim... Gizlənsəm daha yaxşı olar".



Onun gizlənməyə ehtiyacı yox idi. Ertəsi gün Qalaktion gəlmədi.

***

Qalaktion içməyi çox sevirdi. Evinin yaxınlığında kiçik bir dükan var idi və tək içməyi sevirdi. Çox vaxt sərxoş olurdu... Bir gün içəri girib sərxoş olmadan dükanın yanından keçmək qərarına gəldi; bu dükanın yanından keçdi, bir neçə metr getdi, dayandı və dedi: "Əhsən, Qalaktion, deyəsən səbirli ola bilərsən. Elə indi dükana girib bu faktı qeyd etməlisən".

***

**Terenti Qraneli** Mtatsmindada yaşayırdı. Məşhur "Memento Mori" şeirini yazdığı gün evdən çox sevinmiş halda aşağıya doğru yelləndi. Təsadüfən Opera Teatrının yaxınlığındakı Qalaktiona özünü çırpdı. Sevincdən Terenti dərhal onu salamlayaraq dedi: "Qalaktion, Qalaktion, bilirsən nə qədər gözəl şeir yazmışam?"

Qalaktion dedi: "Hə, əzizim? Tamam, onda bir oxu". Qraneli də ona bir nəfəsə "Memento Mori" şeirini oxudu. Qalaktion dedi: "Əzizim, bir dəfə yenə oxu".

Düzü, bu, Terentinin xoşuna gəlmədi. Təəccübləndi və yenə onun istəyini yerinə yetirdi və yeni şeiri Qalaktiona oxudu. Qalaktiondan bir növ qiymətləndirmə və ya tərif gözləyən Terenti bu cavabı aldı: "Oldu, mənim əzizim, oldu", – Qalaktion dedi və ötüb keçdi.

Qraneli təəccübləndi, xoşuna gəlmədi. Və nəhayət, Qalaktiona görə bir daha qəzəbləndi.

O birisi gün, səhər Qalaktiondan inciyən şair təpədən enəndə Qalaktionla haradasa rastlaşmağı arzuladı!

Həqiqətən də, o, Opera Teatrının önündə yenidən Qalaktionla qarşılaşdı, üstünə cumdu və Qalaktion ona macal vermədi:

"İndi səhvlər daha çox buraxılır,
İndi iyun gəlir, ətrafda yaşıl otlar var.
Müqəddəs adım poeziya ilə qalacaq,
Ürəyim və qanım – bu "Memento mori"dir.

Bu gün iyunun üçüdür, istəyirəm ki, on üç olsun,
Məni bir qala əhatə edir – kədər məskəni.
Həyatı istəsəydim, ölümə əzab verməzdim,
Torpaq mənim üçün qara məzar olmazdı.

Hardasa dağ yaxınlığında yağış yağır, hardasa dağda dumandır.
Əvvəllər heç vaxt belə bir təbəssüm görməmişdim.
İndi səmaya baxıram, səmada
Ulduzlar parıldayır – ağ əbədiyyətin simvolu.

İndi nə edəcəyimi bilmirəm, belə olanda.
Qocalığın kölgələri ruha daldalananda.
Mən güclü bir istedadam, səmavi varlığam,
Mənim zərif vətənim – açıq göy, mavi.

Nə edə bilərəm, gecə zil qara, ağır və ümidsizdir.
Kəndimi xatırlayıram, səssiz yerləri.
İndi nəsə başqa bir şey istəyirəm, nəsə başqa bir şey, adsız bir şey,
Məni o ölüm gözləyir, dəqiqliyi ilə bilirəm.

Günlər yavaş-yavaş ötür və ayırd etmək çətindir,
Mən, əzizim, gələ bilmirəm, sənə gedən yol uzaqdır.
Soyadım: Qraneli – poeziya üçün qalacaq,
Ürəyim və qanım – bu "Memento



Mori"dir".

Terenti Qraneli ən yaxşı tərifi belə aldı və "Memento Mori" isə ən yaxşı qiymətini aldı.

Şeir o qədər yaxşı idi ki, poeziya kralı onu əzbərlədi və beləliklə, layiqli şairi alqışladı.

***

Necə deyərlər, **Qoqla Leonidze** bir dəfə də olsun ağzından çıxartmayıb ki, Qalaktion əyyaşdır. Yazıçılar Birliyində Qalaktiona içkini tərgitməsə ittifaqdan xaric ediləcəyi barədə xəbərdarlıq edildikdə, o, ayağa qalxıb deyib:

– Tutaq ki, Qalaktionu qovacağıq, onda nə edəcəyik?

Kimsə yerindən qışqırıb:

– Yazıçılar Birliyi onsuz da mövcud olacaq.

Qoqla gülüb:

– Onda gəlin bu ittifaqın adını dəyişdirək – Ayıq və İçki İçməyənlər Birliyi. Qalaktion bu ittifaqın üzvü olsun, ya olmasın, o, həmişə Qalaktion olaraq qalacaq, qoy onlar on cild nəşr etdiklərini və hələ onun şeirinə layiq bir şey yazmadıqlarını oxusunlar.

Qalaktion Qoqla Leonidzeni təkcə bu sözlərə görə sevmirdi, onlar mənəvi dost idilər.

*(davamı var)*

*Topladı və gürcü dilindən tərcümə etdi:*

**Mirzə Məmmədoğlu**



İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

28 FEVRAL
2026-Cİ İL
№ 04 (244)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# REPETİTOR – TƏHSİLİN DÜŞMƏNİ, YOXSA SİSTEMİN XİLASEDİCİ HALQASI?



Yəqin ki, repetitorluq institutunun ləğv edilməli olduğu barədə fikirləri tez-tez eşidirsiniz, çünki bu, məktəbi funksiyasız qoyur. Gəlin, emosiyalardan uzaqlaşıb reallığa baxaq.

Repetitorluq bir səbəb deyil, o, nəticədir. Yalan söyləməyən riyaziyyat: 30 vs 1.

**Sizcə, repetitorla öyrənmək niyə daha səmərəlidir?**

***Cavab sadədir və rəqəmlərdə gizlənib:***

*Məktəbdə:* 1 müəllim və 30 (və daha çox) şagird, vaxt isə cəmi 45 dəqiqə. Hər uşağa orta hesabla 1,5 dəqiqə düşür.

*Repetitorla:* 1 müəllim və 1-5 şagird. Fokus fərdi ehtiyaclara, tempə və sinifdə heç kimin fərqinə varmadığı o “boşluqlara” yönəlir.

Sinifdə 30 uşaq oturduqda, müəllim fiziki olaraq hər kəsə diqqət ayıra bilmir. O, “qızıl orta” ilə gedir, nəticədə isə fənni yaxşı mənimsəyənlər darıxır.

Çətinlik çəkənlər üçün material tamamilə anlaşılan olmur. Bir anlaşılmaz mövzu digərinin üzərinə əlavə olunur... və sonunda uşaq “onsuz da heç nə başa düşmürəm” deyərək oxumaqdan tamamilə əlini üzür.

**Uşaq niyə repetitora “qaçır”?**

Məsələ təkcə şagird sayında deyil. Repetitorun yanında uşaq məktəbin çox vaxt verə bilmədiyi şeyləri tapır:

*Psixoloji rahatlıq:* Repetitorun yanında uşaq “axmaq” sual verməkdən qorxmur, çünki orada sinif yoldaşları ona mənasız şərhlər deməyəcəklər.

*Motivasiya:* Özəl müəllim çox vaxt nəticədə daha maraqlı olur, çünki onun reputasiyası birbaşa bu nəticədən asılıdır.

*Yüklənmiş proqram:* Məktəb kurikulumu çox vaxt elə qurulur ki, müəllim uşağa mövzunu anlatmaq əvəzinə, materialı çatdırmaq üçün “yarışmalı” olur.

**Repetitorluq ləğv edilərsə nə olar?**

Həqiqət budur ki, repetitorluq bu gün təhsil sistemini tamamilə çökməkdən qoruyan bir “təhlükəsizlik yastığıdır”. Onun qadağan edilməsi məktəbi sağaltmayacaq, əksinə, uşaqların bilik əldə etmək üçün əllərində qalan yeganə dayağı da yox edəcək.

**Alternativ nədir?**

Problemin həlli qadağalarda deyil, məktəbin gücləndirilməsindədir:

*Siniflərdə şagird sayının yarıbayarı azaldılması* (və ya fənlər üzrə qruplara bölünmə) – bu, müəllimin hər bir uşağın gözünün içinə baxa bilməsi üçün yeganə yoldur.

*Müəllimin ləyaqətli əməkhaqqı:* Müəllim məktəbdə normal maaş alsa, sağ qalmaq üçün gündə 12 saat işləməyə ehtiyacı qalmaz.

Tədris proqramının yenidən nəzərdən keçirilməsi: Daha az əzbərçilik, daha çox dərketmə.

**Nəticə:** Biz repetitorlarla deyil, onların zərurətini yaradan mühitlə mübarizə aparmalıyıq. Məktəb şagirdyönümlü olmayana qədər, repetitor təhsil okeanında yeganə xilasedici halqa olaraq qalacaq.

**Levan Samadaşvili**
*Müəllim*

# ÖTƏN İL GÜRCÜSTANIN DÖVLƏT UNİVERSİTETLƏRİNƏ 21538 NƏFƏR QƏBUL OLUB



Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin (NAEC) rəsmi göstəricilərinə əsasən, bütün Gürcüstan miqyasında ali təhsil müəssisələrinə 2025-ci ildə 31704 abituriyent qəbul olub. Buradan 19 dövlət universitetinə 21538 abituriyent – birinci kurs tələbəsi qəbul olub.

Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadzenin 12 fevralda verdiyi bəyanatından sonra məlum olur ki, ötən il qəbul olanların sayı 19311 nəfər təşkil edib, bu göstəricilər Təhsil Nazirliyinin rəsmi press-relizində verilib.

2025-2026-cı ildə dövlətin ali təhsil müəssisələrində qəbul yerlərinin sayı, eləcə də NAEC-in məlumatına görə, 27204-ə bərabər idi. Gürcüstanın Baş nazirinin qərarına əsasən isə, qəbul üçün yerlərin sayı 2026-2027-ci tədris ili üçün 21574-ə bərabərdir.

Belə çıxır ki, 2026-2027-ci tədris ili üçün elan edilmiş yerlərin sayı artıq ötən il qəbul olmuş tələbələrin cəmindən azdır. Onu da nəzərə alaq ki, elan edilmiş yerlər həmişə dolmur. Ötən il dövlət universitetlərində elan edilmiş yerlər 79 % dolmuşdu. Güman ki, bu il daha az tələbə qəbul olunacaq.

***Qeyd edək ki, 2025-2026-cı tədris ilində Gürcüstanın dövlət universitetlərinə 21538 abituriyent qəbul olub:***

Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Universiteti – 205 abituriyent;

Şota Mesxia adına Zuqdidi Dövlət Universiteti – 161;

Kutaisi Beynəlxalq Universiteti – 468;

Suxumi Dövlət Universiteti – 778;

Şota Rustaveli adına Teatr və Kino üzrə Dövlət Universiteti – 128;

Gürcüstan Texniki Universiteti – 3576;

Tədris Universiteti – Batumi Dövlət Dəniz Akademiyası – 594;

Samtsxe-Cavaxeti Dövlət Universiteti – 298;

İlia Dövlət Universiteti – 3829;

İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti – 6115;

Yakob Qoqebaşvili adına Telavi Dövlət Universiteti – 298;

Tbilisi Dövlət Tibb Universiteti – 537;

Tbilisi Vano Saracişvili adına Dövlət Konservatoriyası – 69;

Tbilisi Apolon Kutateladze adına Dövlət Rəssamlıq Akademiyası – 361;

Davit Ağmaşenebeli adına Gürcüstan Milli Müdafiə Akademiyası – 111;

Qori Dövlət Universiteti – 422;

Batumi Dövlət İncəsənət Universiteti – 57;

Batumi Şota Rustaveli adına Dövlət Universiteti – 1632;

Akaki Tsereteli Dövlət Universiteti – 1899.

***Mənbə: edu.aris.ge***

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.